ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.30-37

# YAŞILLAŞDIRILMIŞ MƏKANLARIN LANDŞAFT DİZAYNIN HƏLLİNİN FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR.

Vilayət İsrəfil oğlu Məmmədov[1], Mirzə Rza oğlu Mustafayev[2],
Rahim Fikrət oğlu Mehdizadə[3]

**Xülasə.**

**Tədqiqatın məqsədi -** şəhərin strukturunda təşkilin əsas metod və prinsiplərini, onların həyata keçirilmə vasitələrini, fəaliyyət modellərini özündə əks etdirən istirahət zonasının landşaft – şəhərsalma yenidənqurmasına elmi əsaslandırılmış yanaşmanın işlənib hazırlanması.

**Tədqiqatın metodologiyası -** şəhər ərazisinin böyük sahəsini ekoloji baxımdan tənzimləmə imkanı olan güclü istirahət resursu kimi təhlil etməkdən, şəhər əhalisini istirahət funksiyalarının bütün spektorları, istirahət fəaliyyətinin müxtəlif növləri və istirahət tipləri ilə təmin etməkdən ibarətdir.

**Tədqiqatın nəticəsi -** şəhər mühitinin planlaşdırma və funksional təşkilində, ekoloji münasibətləşdirilməsində landşaftların potensialı və onların rolu, kompleks yaşıllaşdırma məkanların baş planlarda təklif olunmuş mümkün tipoloji modelləri, ərazi funksiyasının ümumi balansında istirahət zonalarının say dinamikalarının müqayisəli xarakteri verilmişdir.

**Tədqiqatın elmi yeniliyi -** ilk dəfə olaraq şəhərin istirahət zonasının, beynəlxalq tələblər və mühitin keyfiyyətinə qoyulan tələblərə cavab verən landşaft – rayonsalma təşkilinin prinsip və üsulları təklif olunur.

**Açar sözlər:** şəhər, landşaft, metod, plan, model

## Giriş.

Müasir şəhərlərin intensiv böyüməsinə müvafiq olaraq, onların təbii resurslarının tənəzzül səviyyəsi də yüksəlir. Bu da ki, şəhərlərin bir təbii antropoloji sistem kimi ekoloji durumun pozulmasına və rekreasiya üçün yararlı ərazilərin azalmasına gətirib çıxarır. Şəmkirdə şəhər landşaftının təbii komponentlərinin qorunması və artırılması, yaşıllaşdırma xidmətinin yüksək səviyyəsinin təmin edilməsi. Şəhər əhalisinin yaşam keyfiyyətini təyin edir.

Şəmkir şəhərinin landşaft və memarlığı, bağ – park quruculuğu landşaft memarlığı pozisiyasından bu vaxta kimi tədqiq edilməmişdir. Şəhərin müasir inkişaf mərhələsini və landşaft mühitinin uzunömürlülüyünü nəzərə alaraq mövzunun işlənməsi aktuallığı aydın görünür.

Şəhər ətrafı ərazilər çoxsaylı təbii landşaft potensialına malikdirlər, şəhər landşaftının tarixi tiplərini özlərində əks etdirirlər və müasir şəhər mühitinin identifikasiyası üçün bir əsas kimi götürülə bilər. Lakin bu ərazilər gərgin texnogen təzyiqə məruz qalmışlar və təsəvvürün yüksək səviyyəsi iləxarakterizə edirlər.

Landşaftın tətbiqinə şəhərsalma mövqeyindən yanaşma xüsusiyyətləri layihələndirmə ilə müəyyənləşdirilir. Qarşılıqlı əlaqəli komponentlər sistemi kimi landşaftın hər tərəfli təhlili coğrafiya elmi üçün xarakterikdir. Burada şəhərsalma obyektlərinin istismarı və tikintisi üçün böyük əhəmiyyətli olan komponentlər tədqiq olunur.

Şəhərin planlaşdırma quruluşuna relyef, hidroqrafiya və hidroloji şərait təsir edir ki, bunlardan da şəhərin kompaktlıq dərəcəsi, nəqliyyat yollarının yerləşdirilməsi, planın ümumi kompozisiyası asılı olur. Tikintidə binaların və qurğuların seçilməsində, yaşıllaşdırma üsullarında iqlim xüsusiyyəti nəzərə alınmalıdır.

---

[1]Əsas müəllif: Məmmədov Vilayət israfil oğlu, texnika üzrə fəlsəfə doktoru, ADAU Aqrotexnologiya fakültəsinin Yerquruluşu kafedrasının dosenti, e-mail: vilayat7@mail.ru
[2]Mustafayev Mirzə Rza oğlu -Yerquruluşu kafedrasının baş müəllimi
[3]Mehdizadə Rahim Fikrət oğlu - ATU Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının baş müəllimi

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.30-37

Şəmkir şəhərində mövcud olan funksional – planlaşdırma quruluşu və özünəməxsus təbii iqlim xüsusiyyətləri ilə xarakterizə edilir.

Landşaftın həndəsi forması elə bir planlaşdırma şəraiti yaradır ki, ondan həm ilkin plan şəraiti kimi, həm də, şəhərsalma fəaliyyəti prosesində məqsədyönlü olaraq yeni şəkilə salınır. Bunun da əsasını yaşayış məskənlərinin plan quruluşuna və məskunlaşması şəklinə aktiv təsir edən hidroqrafiya şəbəkəsi və relyef təşkil edir.

Şəhərsalma layihələndirilməsinin əsas məsələlərindən biri estetik cəhətdən mükəmməl olan ətraf mühitin məqsədyönlü formalaşmasıdır.

Landşaft şəhərsalma üçün hər şeydən əvvəl şəhəri genişləndirmə resursudur. Onun komponentlərinin kompleksi və xassələr həmişə seçimlə nəzərdən keçirilir.

Şəhərsalmada landşafta daha bir yanaşma ətraf mühitin mühafizəsinin gigiyenik cəhətləri ilə bağlıdır.

**Materiallar və metodlar.** Məqalənin tərtib olunması üşün lazımı materiallar toplanmışdır. Metodikanın əsasını elmi tədqiqatın kompleks metodu təşkil edir. Buraya layihələndirmənin yerli və beynəlxalq təcrübəsinin təhlili aiddir.

**Nəticələr və müzakirə.** Mühit rəngarəngliyinin əldə edilməsi vasitəsi iiə landşaft dizaynın təşkilinin məsələləri mühitə müəyyən tələblər irəli sürən aspektlər nöqteyi - nəzərindən müəyyən edilməlidir.

Məsələn bütün layihələndirmə səviyyələrində təbiət - mühafizə aspekti aşağıdakı tələbləri irəli sürür:

• müəyyən yer üçün nadir və xarakterik olan landşaft keyfiyyətlərinin müəyyən edilməsi;
• landşaftın ləğv olunan komponentlərinin bərpa edilməsi;
• pozulmuş ərazilərdə süni landşaftın formalaşması;
• bəsit landşaftların zənginləşdirilməsi;
• şəhərsalma fəaliyyəti prosesində landşaftın mühafizəsi;
• landşaftın sanitar - gigiyena keyfiyyətlərinin yaxşılaşdırılması.

Bu tələblər aşağıdakı üsullar vasitəsi ilə yerinə yetirilə bilər:

• təbii komponentlərin qorunmasına tikiliş vasitəsi ilə açıq olan müxtəlif miqyaslı landşaft dominantlarının və aksentlərinin (təpələrin, yamacların, relyef qatlarının, kiçik çayların, meşələrin, kollar sahəsinin, ayrı - ayrı ağac növlərinin, vəhşi floranın) aşkar edilməsinə səbəb olan planlaşdırma həllərinin və abadlaşdırma vasitələrinin tətbiq edilməsi;
• mərkəzin açıq məkanları ilə təbii ətrafın planlaşdırma və vizual əlaqələrinin həyata keçirilməsi; mərkəz mühitin kompozisiyasına təbii mühitin maksimal dərəcədə daxil edilməsi;
• təbii komponentlərin aksentləşdirilməsi;
• nəqliyyat və piyada əlaqələrin proqramlaşdırılmış istiqamətinin çəkilişi;
•zəngin təbii ehtiyatları olan şəraitlərdə landşaft komponentləri memarlıq komponentləri üzərində üstünlük təşkil edən mühitin formalaşması;
•bəsit, az ifadə olunmuş landşaftın geoplastikanın, bitki materialının, süni su qurğularının tətbiqi vasitələri ilə zənginləşdirilməsi.

Şəhər tikilişinin rekonstruksiya prosesində süni landşaft mühiti baş kompozisiya oxunun su-yaşıllıq məkanı əsasında formalaşan tarixl formalaşmış mərkəz özəyinin memarlıq-məkan vəhdətini təmin edir. Həmin bu açıq məkanlar daxili panoramların genişlənməsinə imkan verir və şəhərin nümunəviliyini nəzərə çarpdıran dərin perspektivlərin yaranmasına imkan verir ( Вергунов А.П,2012 )

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.30-37




Təbiət mühafızə məsələləri nöqteyi-nəzərindən abadlaşdırma həm bütünlükdə təbii mühitin, həm də onun ayrı-ayrı komponentlərinin qorınub-saxlanmasını təmin etməli, landşafta olan təzyiqi idarə etməli, müəyyən ərazilərdə insan davrayışını təyin etməli, mikroiqlim şəraitlərini yaxşılaşdırmalı, landşaftın neqativ keyfiyyətlərini mülayimləşdirməli, onun çatışmayan komponentlərini əvəz etməlidir.

Bu məqsədlə yüklərin xarakterindən asılı olaraq yüksaxlayan divarların, pandusların, sahil möhkəmləndirici qırğuların difrensasiya olan örtüklərin, hovuzların, nəmişləndirici və drenaj qurğuların, faunanın xidməti üçün təchiz edilən qurğuların (quşlar üçün evciklər və s.) istifadəsi məqsədəuyğundur. Utilitar-funksional və sanitar aspektlər:

• açıq məkanlarda əlverişli mikroiqlimin formalaşması;

• mərkəzin açıq məkanlarında əhalinin ayrı-ayrı fəaliyyət növü üçün (müxtəlif məqsədlər üçün hərəkət, bir nəqliyyat növündən digərinə minik, müxtəlif xarakterli müəssisələrə gediş-gəlişlər kütləvi tədbirlər, ünsiyyət, qısa müddətli rekreasiya turizm və s.) əlverişii şəraitlərin təmin edilməsinə səbəb oiur.

Beləliklə memarlıq-landşaft təşkili aşağıdakıları təmin etməlidir:

• landşaftın gigiyenik parametrlərinin təkmilləşməsi;

• mərkəz ərazisinin səmərəli, intensiv istifadəsi;

• eyni ərazinin çox funksionallığı, yəni komfort şəraitlərinin təmini məqsədi ilə funksiyaların inteqrallaşdırılması;

• piyada-yol şəbəkəsinin optimallığı, piyadaların sürətli və təhlükəsiz hərəkəti;

• ayrı - ayrı məkanların memarlıq - landşaft mühitinin differensasiyası;

• insana təsir edən təbii - iqlim amillərinin və antropogen mühitin mənfı təsirlərinin azaldılması;

• mühit komfortluluğuna nail olmaq üçün təbii ehtiyatların istifadəsi.

Bu nöqteyi - nəzərdən abadlaşdırma tədbirləri tələb olunan istismar rejimini təmin edərək, müəyyən istehlakçı kontingentinin konkret fəaliyyət növlərinin və tələblərinin təmininə yönəlməlidir. Abadlaşdırma tədbirləri mikroiqlimi tənzimləməli, insanları zərərli külək, günəş, yağıntı və temperatur dəyişikliklərinin təsirindən qorumalı, avtomobillərin saxlanmasını və piyadaların təhlükəsizliyini təmin etməlidir. Burada abadlaşdırma elementləri müxtəlif

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.30-37

pavilyonlarla, kölgəliklərlə, ekranlarla, baryerlərlə (hədlərlə), çəpərlərlə, örtüklərlə, oyun və idman meydançalan ilə, texniki və sanitar qurğularla təmsil edilməlidir. Onlarm tipoloji xüsusiyyətləri memarlıq-landşaft təşkili obyektlərinin xüsusiyyətlərinə uyğun olmalı və göstəriciləri ilə müəyyən olunur (Родичкин И.Д,200).

Estetik nöqteyi - nəzərdən bu zaman aşağıdakı məsələlərin həlli zəruridir:

• mərkəzin açıq və o cümlədən yaşıllaşdırılmış məkanlar sisteminin təkmilləşdirilməsi;
• mərkəzin landşaft dizaynı vasitələri ilə şəhərin baş məkan kimi formalaşması;
• mərkəzin digər şəhərin struktur elementləri ilə kompozisiya əlaqələrinin yaradılması;
• təbii landşaftın memarlıq-məkan və estetik xüsusiyyətlərinin təkmiliəşdirilməsi;
• daxili ərazilərin yaxşılaşdırılması;
• insan şəxsiyyətinin formalaşması.

Estetik aspekt məsələləri aşağıdakıların əsasmda həll edilə bilər:

• şəhər mühitinin təbii və süni komponentlərinin formalaşması;
• mərkəzin bütövlükdə landşaft ilkin əsasının və qismən onun ayrı-ayrı məkanlarının müəyyən edilməsi;
• landşaft dominantlarımn (həm təbii, həm də süni) kompozisiya imkam üzrə səviyyələrə ayrılması və landşaft dizayn həllərində landşaft komponentlərinin nəzərə çarpdırılması;
• həm şəhərin ərazisində, həm də onun hüdudlarından kənarda yerləşən müxtəlif miqyaslı landşaft obyektləri ilə vizual əlaqələrin yaradılması;
• atraksionlar yerləşən şəhər əraziləri ilə landşaft zonaİarının və yaxud əlaqələrinin formalaşması;
• memarlıq ansambllarının, yüksək sosial, ideoloji və bədii-memarlıq səviyyəli məkanlarda yerləşən möhtəşəm obyektlərin müəyyən edilməsi;
• planların vizual cəlbediciliyinin təmin edilməsi;
• kompozisiya üsullannm irsiliyi, tarixi «mühit» qovşaqlarının qorunub saxlanması vasitəsi ilə tarixi mühitin tarixi şəhərlərdə və zonalarda) formalaşması;
• şəhər mühitinin informativliyinin əldə edilməsi;
• landşaft mühiti vasitələri ilə məkanların açılışı;
• mərkəz obrazının fərdiliyinin və ifadəliyinin təmin edilməsi.

Obyektlərin abadlaşdırıllması:

• elementlərin məkana uyğun gəlməsi (mütənasibliyi) və istismar intensivliyi;
• məkan tiplərinin difrensiallaşması;
• tarixi zonalarda obraz həqiqiliyi ilə;
• böyük memarlığın və abadlaşdırma elementlərinin üslub vəhdəti və yaxud onlanın estetik müxtəlifliyi ilə xarakterizə edilməlidir.

Bu məqsədlərlə bütün abadlaşdırma elementləri tətbiq edilə bilər Memarlıq-planlaşdırma nöqteyi-nəzərindən bu məsələlər öz əksini yuxarıda qeyd edilən tələblərdə tapmış və çoxproqramlı şəhər mühitinin landşaft dizayn üsulları ilə onlarm təmin edilmə vasitəsi kimi çıxış edir.

Beləliklə, ayrı-ayrı açıq mərkəz məkanlarının formalaşnıası konkret şəhərsalma, landşaft və sosial-mədəni şəraitlərin nəzərə alınması ilə onların müəyyən edilən ümumi memarlıq-landşaft təşkili tələblərinin və istiqamətlərinin, həmçinin də yuxarıda açıqlanan prinsiplərin əsasında həyata keçə bilər (Бакутие М.Г, 2004).

Mərkəzin memarlıq-landşaft təşkili nümayişlər, mitinqlər, yürüşlər kimi müxtəlif kütləvi ictimai tədbirlərin keçirilməsi üçün şəraitləri təmin etməlidir. Onu da nəzərə almaq lazımdır ki, belə tədbirlər xüsusi marşrutlar üzrə keçirilir və müəyyən mərhələlərlə xarakterizə edilir.

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.30-37

Məsələn, şəhər sakinlərinin kütləvi bayram nümayişi aşağıdakı mərhələlər üzrə xarakterizə edilir:

Birinci və ikinci mərhələlərdə iştirakçıların müxtəlif rayonların lokal mərkəzlərində yığışması və müəyyən marşrut üzrə hərəkəti həyata keçir. Bu tədbirlər həyata keçən mühitin atraktivlik dərəcəsinin əhəmiyyəti yoxdur, bu səbəbdən də o inert vəziyyətdə qala bilər.

Üçüncü mərhələdə baş məqsəd olan nümayiş həyata keçir. Nümayiş üçün memarlıq-landşaft təşkiii zamam kütləvi toplantı və fəal funksiyalar həyata keçən zonaların bütün iştirakçılarını birləşdirən, iri miqyash həllərin və təntənəli bayram formalarının tələb edilməsini nəzərə almaq lazımdır. Ətraf mühit bu zaman dekorasiya kimi xidmət edir. Eyni zamanda bura gələnlərin kütləlilik amilini nəzərə alaraq, bu mühitin formaları istehlakçıların geniş zövqlərinə cavab verən orta səviyyəli cəlbediciliyə malik olmalıdır.

Ümumilikdə landşaft memarlığı vasitələri mühitin estetik ifadəliyinin gücləndirilməsinə yönəlməiidir. Fərdi məkan xüsusiyyətləri daşıyan memarlıq rəmzlərini (planlaşdırma, səthi, həcmi, rəng simvolu) bu zaman digər obyektlərə və yaxud sıravi tikilişə daxil edilə bilməz.

Müasir tamaşa obyektlərinin (məsələn teatr binalarının) vizual müqayisəsi onların eyniliyini, az ifadəliyini təsdiqləyir. Onların fərdiliyinə nail olmaq məqsədi ilə yaşıllaşdırma vasitələri ilə həcm elementləri yaradaraq, maddi-məkan mühitinin estetik ifadəliyinin gücləndirilməsi, vizual qavrayış üçün effektiv nöqtənin yaradılması, ansambl həllinə cəhd edilməsi, tamaşaçının nəzərini binanın maraqlı detallarına yönəldilməsi zəruridir.

Mərkəzin, o cümlədən də şəhərin memarlıq-landşaft mühitinin formalaşması zamanı mədəni-tarixi və sosial imkanların (ərazi, tikiliş, abidələr), şəhərin respublikada, vilayətdə əhəmiyyətindən və rolundan asılı olan müasir funksiyaların, digər küçələrlə, meydançalarla, obyektlərlə, landşaft dominantları ilə yaranan mövcud və mümkün olan vizual əlaqələrin, küçənin - yəni piyada dublorın yaradılması imkanının və onunla vizual əlaqənin; ayrı-ayrı memarlıq-landşaft layihələndirmə obyektlərinin funksional və kompozisiya birliyi kimi təşkili imkanının; buradan keçən nəqliyyatın sərnişinlərinin, piyadaların və bu tikilişdə mövcud olan insanlar (sakinlər, işçilər) tərəfindən landşaft mühitinin qavrayış xüsusiyyətlərinin nəzərə alınması vacibdir.

Şəhərin baş mərkəzi kimi mərkəzi küçənin formalaşması zamam nəzərə almaq lazımdır ki, hədsiz gündəlik təmtəraq, emosional pauzaların - aksentlər fonunun qeyri-mövcudluğu nəzərdə tutulan təsirin itməsinə səbəb olur, yorucu təəsürat yaradır.

Az ifadəli, funksional və estetik əhəmiyyət daşımayan tikiliş zamanı kompozisiya aksentləri və dominantları rolunu öz üzərinə park, bağça və ya nöqtəvi element kimi hər hansı miqyasa malik landşaft obyektləri və yaxud landşaft vasitələrinin komponentlərindən biri götürməlidir. Landşaft memarlığı vasitəsi ilə planlaşdırma və vizual əlaqələrin formalaşması küçənin fərdi görkəminin yaranmasma və optimal istiqamətlənmə şəraitlərinin təmin edilməsinə səbəb ola bilər.

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.30-37



Şəhərlərin tarixi-memarlıq zonalarının baş memarlıq-landşaft təşkili məsələləri tarixi obyektlərin birləşdirilməsindən, onların ansambl formalaşmasmda olan açılışından və oradakı iştirakından, sərgi və memorial zonaların yaradılmasından asılıdır. Bu da tarixi dəyərli maddi-məkan mühitinin, o cümlədən də dəyərli landşaftların yaranmasını şərtləndirən amillərdən biridir.

Diqqətəlayiq mühitin formalaşma məqsədi ilə planlaşdırma daxilində memarlıq və yaşıllaşdırmanın üslub vəhdətinin saxlanılması vacibdir. Üslub istiqamətinin seçimi abidələrin yaranması və yaxud yüksək çiçəkİənməsi dövrü ilə müəyyən cdilməli və onun hal-hazırkı funksiyalarına uyğun olmalıdır.

Şəhərin tarixi zonalarının fərdiləşməsi məqsədi ilə həmin region üçün səciyyəvi olan yaşıllıq əkintiləri çeşidinin seçimi, onların ənənəvi təşkil üsullarının tətbiqi zəruridir.

Müasir şəhərsaimada həm lokal, şəhər piyada məkanlarm (meydanların, passac - küçələrin yaşıllıq ayrıclarının, baş küçə dublyorlarının, həmçinin də onların sistemlərinin yaradılması tendensiyası parlaq təzahür edir. Bu zaman vasitələri ilə sosial və mədəni funksiyalar müəyyən edilən, sakinlərin psixoloji və fiziki rahatlığını maksimal təmin edən landşaft memarlığı vasitələrindən maksimum istifadə edilir **(**Бархин М.Г,2000**).**

Piyada zonalara daxil olan kütləvi gəliş-gediş yeri olan binalarla açıq məkanlar arasında funksional əlaqələrin formalaşması zəruridir.

Məsələn, küçənin ticarət obyektləri ilə tikilişi çoxsaylı ticarət nöqtələri, kafelər, qısamüddətli gözləmə - istirahət yerləri, konsert salonları, kinoteatrlar kimi açıq məkanın təşkilini diqtə edir. Bu zaman açıq foye, vestibül, müsiqili bölgüsünü müəyyən etmək lazımdır. Bu mərkəzlər ictimai, təsərrüfat təşkilatlarının, mədəniyyət, istirahət, idman obyektlərinin, ticarət və məişət təşkilatlarının, yaşayış komplekslərinin, təhsil müəssisələrinin mərkəzlərinin, vağzalların zonalarında və şəhərin giriş zonalarında yerləşməlidir.

Öz forma baxımından əyani təbliğat elementləri daim fəaliyyət göstərən və müvəqqəti ola bilər.

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.30-37

Ayrı-ayrılıqda planlaşdırılmış əyani təbliğat elementləri inzibati meydanlarda, mədəni-tamaşa meydanlarında və nəqliyyat qovşaqlarında, piyada küçələrdə, parklarda, bağçalarda - yəni ümumşəhər səviyyəli ərazilərdə yerləşə bilər.

Onu da qeyd etmək lazımdır ki, yol kənarında magistrallar boyu yerləşən əyani təbliğat elementləri təhlükəsizlik şəraitini pozaraq, sürücülərin işinə mane olur.

Mərkəzin ikinci dərəcəli küçələrinin səciyyəvi yaşayış mühitində əyani təbliğat vasitələrindən az istifadə edilməlidir. Məsələn,əhalinin passiv funksiya zonasında ıııformasiya və yaxud ideoloji təyinat daşıyan meydançaların yerləşdirilməsi arzu olunmazdır **[5].**

**Yekun nəticə**. Şəhərin yaşıllaşdırılmış məkanlarının təşkili üçün ekoloji sabitliyin prinsiplərinin həyata keçirilməsinə, şəhər mühitinin humanistləşməsinə və sosial baxımdan istiamətlənməsinə nəzər yetirilmişdir. Şəhər landşaftının təbii və antropogen komponentlərinin balansının saxlanması və şəhər əhalisinin istirahət tələblərinin ödənilməsinə imkan verən sistemli kompleks yanaşma həyata keçirilmişdir.

### Ədəbiyyat siyahısı.


1. Вергунов А.П., Денисов М.Ф., Ожечов С.С. Ландшафтное проектирования. Высшая школа, 2012.
2. Родичкин И.Д. человек, среда, отдых. Киев, «Будивельник», 2006, 158 стр.
3. Бакутие М.Г. Интересное благоустройство городских территорий. М., Стройиздат, 2004, 236 стр.
4. Бархин М.Г. Город. Структура и композиция, М.:, Наука, 2000, 264 стр.
5. В помощь проектировщику – Градостроительство. Ландшафт и архитектурно – планировочная структура города, Киев, «Будевельник», 2003.


### FACTORS INFLUENCING THE FORMATION OF LANDSCAPE AND DESIGN SOLUTIONS FOR GREENED AREAS.

Vilayat Israfil oglu Mammadov[1], Mirza Rza oglu Mustafayev[2], Rahim Fikrat oğlu Mehdizade[3]

**Summary.**

The purpose of the study is to develop a scientifically based approach to the landscape and urban reconstruction of a recreational area, including the main methods and principles of organization in the structure of the city, the means of their implementation, and activity models.

The research methodology consists in the analysis of a large area of the urban territory as a powerful recreational resource with the possibility of environmental regulation, providing the urban population with a full range of recreational functions, various types of recreational activities and types of recreation.

The result of the study is the potential of landscapes and their role in the planning and functional organization of the urban environment, ecological connection, possible typological models of integrated green spaces proposed in the general plans, and the comparative nature of population dynamics. recreational areas in the overall balance of the territorial function are given.

The scientific novelty of the research is that for the first time the principles and methods of landscape-zonal organization of the city's recreational zone are proposed, which meet international requirements and requirements for the quality of the environment.

**Key words:** city, landscape, method, plan, model.

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2022.30-37

**ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ ЛАНДШАФТНО-ДИЗАЙНЕРСКИХ РЕШЕНИЙ ОЗЕЛЕНЕННЫХ ТЕРРИТОРИИ.**

Вилаят Исрафил оглы Мамедов, Мирза Рза оглы Мустафаев[2], Рахим Фикрат оглы Мехтизаде[3]

**Резюме.**

**Цель исследования -** разработать научно-обоснованный подход к ландшафтно-градостроительной реконструкции рекреационной зоны, включающий основные методы и принципы организации в структуре города, средства их реализации, модели деятельности.

**Методология исследования** состоит в анализе большой площади городской территории как мощного рекреационного ресурса с возможностью экологического регулирования, обеспечивающего городское население всем спектром рекреационных функций, различными видами рекреационной деятельности и видами отдыха.

**Результат исследования -** потенциал ландшафтов и их роль в планировочно-функциональной организации городской среды, экологическая связь, возможные типологические модели комплексных зеленых насаждений, предложенные в генпланах, сравнительный характер динамики численности. рекреационных зон в общем балансе территориальной функции приведены.

**Научная новизна исследования** – впервые предложены принципы и методы ландшафтно-зональной организации рекреационной зоны города, отвечающие международным требованиям и требованиям к качеству окружающей среды.

**Ключевые слова**: город, пейзаж, метод, план, модель.